**AZƏRBAYCAN RESPUBLİKASI TƏHSİL NAZİRLİYİ**
**BAKI DÖVLƏT UNİVERSİTETİ**

*Əlyazması hüququnda*

**ƏLİYEV AQŞİN RAFİQ oğlu**

# VALTER SKOTT VƏ XX ƏSRİN I YARISI AZƏRBAYCAN TARİXİ ROMANI

**5716.01 – Azərbaycan ədəbiyyatı**
**5718.01 – Dünya ədəbiyyatı (ingilis ədəbiyyatı)**

**Filologiya üzrə fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün təqdim edilmiş dissertasiyanın**

**AVTOREFERATI**

**Bakı – 2017**

Dissertasiya Bakı Dövlət Universitetinin Dünya ədəbiyyatı kafedrasında yerinə yetirilmişdir.

Elmi rəhbər: filologiya üzrə elmlər doktoru, professor
**Cəlil Qərib oğlu Nağıyev**

Rəsmi opponentlər: filologiya üzrə elmlər doktoru, professor
**Şahin Həmid oğlu Xəlilli**

filologiya üzrə fəlsəfə doktoru, dosent
**Leyli Əliheydər qızı Əliyeva**

Aparıcı təşkilat: **Azərbaycan Dövlət Pedaqoji Universitetinin Azərbaycan və dünya ədəbiyyatı kafedrası**

Müdafiə _____________________ 2017-ci il saat _______ Bakı Dövlət Universiteti nəzdində elmlər doktoru və fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün təqdim olunan dissertasiyaların müdafiəsini keçirən D.02.081 Dissertasiya Şurasının iclasında keçiriləcəkdir.

Ünvan: AZ 1148, Bakı, Z.Xəlilov küç. 23, Bakı Dövlət Universiteti, əsas bina, II mərtəbə, Videokonfrans zalı.

Dissertasiya ilə Bakı Dövlət Universitetinin kitabxanasında tanış olmaq olar.

Avtoreferat ___________________________ 2017-ci ildə göndərilmişdir.

D.02.081 Dissertasiya Şurasının elmi katibi,
filologiya üzrə elmlər doktoru,
professor: Tofiq Hüseyn oğlu Hüseynov

## İŞİN ÜMUMİ SƏCİYYƏSİ

**Mövzunun aktuallığı:** Qərbi Avropada, o cümlədən İngiltərədə siyasi və ictimai münasibətlərin genişlənməsi ədəbiyyatda romantik əhval-ruhiyyənin yaranmasına səbəb olurdu. İnsanlar real həyatda görə bilmədiklərini ədəbiyyatda axtarmağa çalışırdı. İctimai və siyasi sahədə baş verən bu təlatümlər dövründə yazıb-yaradan yazıçılardan biri də böyük şotland yazıçısı Valter Skott olmuşdur. O öz yaradıcılığı ilə dünya ədəbiyyatında tarixi roman janrının əsasını qoymuşdur. Ədibin yaradıcılıq illəri romantizmin çiçəklənməsi və romantizmdən realizmə keçid dövrünə təsadüf edir. V.Skottun yaradıcılığını bir neçə qrupa bölmək olar. Yazıçının romanlarının birinci qismi öz vətəni Şotlandiyanın tarixi keçmişinə ("Ueverli, yaxud altmış il əvvəl", "Qay Mannerinq", "Antikvar", "Puritanlar", "Rob Roy"), digər bir qismi isə İngiltərənin tarixi keçmişinə ("Ayvenqo", "Monastr", "Rahib", "Kenilvort", "Vudstok"), başqa bir hissəsi isə digər Avropa ölkələrinin tarixinə ("Kventin Dorvard", "Həmail") həsr edilmiş romanlardır. Valter Skottun tarixi romanlarından başqa tarixin müxtəlif dövrlərinə həsr edilmiş bir sıra məşhur əsərləri də vardır ki, bunlardan da "Şotlandiyanın tarixi", "Napaleon Bonapartın həyatı" əsərlərini göstərmək olar. Valter Skott romanlarında Orta əsrlərin ilk dövrlərindən başlayaraq ("Ayvenqo" romanı) XVIII əsrdə baş verən hadisələrə ("Rob Roy" romanı) qədər böyük bir tarixi dövrü, İngiltərənin və Şotlandiyanın bir neçə əsrlik tarixini əks etdirir.

XX əsrin əvvəllərində Azərbaycan ədəbiyyatşünaslığında yenicə yaranmaqda olan tarixi roman janrının baniləri Y.V.Çəmənzəminli və M.S.Ordubadinin yaradıcılıqlarında da Azərbaycanın və Şərqin uzaq keçmişi ilə bərabər, müasiri olduqları dövrün siyasi mənzərəsini əks etdirən tarixi romanlar da yazmışlar. Bundan başqa həm Valter Skott, həm də Y.V.Çəmənzəminli və M.S.Ordubadi dövrünün ictimai-siyasi hadisələrində yaxından iştirak edən ictimai xadim olmuşlar. Bu baxımdan mövzunun aktuallığını vacib edən məsələlər aşağıdakılardır:

Həm Valter Skott, həm də Y.V.Çəmənzəminli və M.S.Ordubadi öz ölkələrində və dünyada tarixi roman janrının banisi və ustadları sayılırlar;

Valter Skott kimi Y.V.Çəmənzəminli və M.S.Ordubadi də öz ölkələrinin həm uzaq keçmişini, həm də müasirləri olduqları dövrün ictimai-siyasi mənzərəsini əks etdirən tarixi romanlar yazmış, öz



yaradıcılıqlarında vətənlərinin çox böyük bir tarixi dövrünü qələmə almışlar;

Valter Skott və Y.V.Çəmənzəminli ilə M.S.Ordubadi böyük inqilabların şahidi olmuş, ictimai və sinfi bərabərsizliklərin və haqsızlıqların əleyhinə çıxaraq tarixə böyük bir vətənpərvər kimi yanaşmışlar;

Valter Skott və Y.V.Çəmənzəminli ilə M.S.Ordubadi tarixi hadisələri olduğu kimi olmasa da, həqiqətə daha yaxın bir formada öz romanlarında əks etdirməyə çalışmışlar.

**Mövzunun işlənmə dərəcəsi:** Valter Skottun yaradıcılığı indiyə qədər Azərbaycan ədəbiyyatşünaslığında ayrıca bir monoqrafik və konseptual elmi-tədqiqat işinin predmeti kimi öyrənilməmişdir. Bununla belə Qərbi Avropa və Rusiya ədəbiyyatşünaslığında çıxan bir sıra nəşrlərdə bu və ya digər dərəcədə Valter Skott yaradıcılığından bəhs edilmiş, müxtəlif vaxtlarda Valter Skottun həyatı və yaradıcılığının bəzi məqamlarına toxunan bir neçə icmal şəkilli məqalə çap olunmuşdur. Bunlardan ingilis tədqiqatçıları Aleksandr Uelş, Devid Dayçes, E.O.Ualker, Fiona Robertson, E. Muir, J.Lokhart, macar tədqiqatçısı Georq Lukaç, rus tədqiqatçıları V.Q.Belinski, B.Reizov və s.-nin adlarını çəkmək olar.

Dissertasiyada ilk dəfə Valter Skottun həyatı və yaradıcılığı, o cümlədən onun tarixi romanlarının əsasında İngiltərənin böyük bir tarixi dövrünün siyasi, ictimai, milli, sosial və ədəbi mənzərəsi tədqiq edilir, həmçinin, XX əsrin I yarısı Azərbaycan tarixi romanı ətraflı araşdırılır, Valter Skottun, Y.V.Çəmənzəminlinin və M.S.Ordubadinin tarixi romanları müqayisəli şəkildə öyrənilərək elmi ümumiləşdirmələr aparılır.

**Tədqiqatın obyekti:** İngilis və Azərbaycan ədəbiyyatlarında tarixi roman janrının təkamülünün Valter Skottun, Y.V.Çəmənzəminlinin və M.S.Ordubadinin tarixi romanları əsasında araşdırılması tədqiqatın əsas obyektini təşkil edir.

**Tədqiqatın məqsəd və vəzifələri:** Tədqiqatın məqsədi tarixi roman janrının ingilis və Azərbaycan ədəbiyyatları, Valter Skott, Y.V.Çəmənzəminli və M.S.Ordubadinin tarixi romanları əsasında filoloji, estetik təhlili, mövzu ilə bağlı ayrı-ayrı mənbələrdən istifadəsi, eləcə də tarixi, ədəbi-bədii paralellərin müəyyənləşdirilməsidir. Bu məqsədə çatmaq üçün tədqiqat zamanı aşağıdakı cəhətlərə xüsusi diqqət yetirilmişdir.

- Valter Skott, Y.V.Çəmənzəminli və M.S.Ordubadi yaradıcılıqlarının və dünyagörüşlərinin əsas istiqamətlərinin, onların yaradıcılıqlarında xüsusi yer tutan tarixi roman mövzusunun qaynaqlarının və işlənmə xüsusiyyətlərinin müəyyənləşdirilməsi;

- Valter Skottun dövründə Qərbi Avropada, eyni zamanda İngiltərədə tarixi roman janrının inkişafı mühitində yaşayıb-yaradan yazıçıların əsərləri ilə onun tarixi romanları arasında oxşar və fərqli cəhətlərin, motivlərin müqayisəli və nəzəri təhlilinin və elmi ümumiləşdirmələrin aparılması;

- Valter Skott ilə Y.V.Çəmənzəminli və M.S.Ordubadinin tarixi romanlarının ideya-bədii xüsusiyyətlərinin təhlili, yazıçıların milli və bəşəri qayə-məqsədlərinin açıqlanması

**Tədqiqatın metodoloji əsası:** Dissertasiyada tarixi-müqayisəli və tipoloji təhlilə xüsusi yer verilməsi, Azərbaycan və dünya ədəbiyyatşünaslığında tarixi roman janrının tədqiqi tarixinə yeni yanaşma, elmi-nəzəri ədəbiyyatın müddəalarına əsaslanaraq ingilis ədəbiyyatında Valter Skottun tarixi roman janrının yaradıcısı və banisi olması baxımından onun əsərlərinin ictimai-tarixi mənbələr, elmi məxəzlər əsasında ədəbi-bədii və elmi-nəzəri ümumiləşdirilmələrin aparılması yolu ilə, mövzunun müqayisəli təhlil və tədqiqinə geniş yer ayrılması tədqiqatın metodoloji əsasını təşkil edir.

**Tədqiqatın elmi yeniliyi:** Mövcud dissertasiyanın mövzusu hazırki kontekstdə istər ingilis, istərsə də Azərbaycan ədəbiyyatşünaslığında ilk dəfədir ki, araşdırılır. Tədqiqat işi Valter Skott və Məmməd Səid Ordubadi ilə Yusif Vəzir Çəmənzəminli yaradıcılığında tarixi roman janrının ədəbi-bədii və elmi-nəzəri prinsiplərinin, tarixi şəraitinin, keçdiyi inkişaf yollarının araşdırılması baxımından ilk elmi tədqiqat işi və monoqrafik araşdırmadır. Dissertasiyanın elmi yeniliyini şərtləndirən amillərdən biri də ingilis tarixi romanının Azərbaycan tarixi romanı ilə müqayisəli şəkildə tədqiq olunması, bu kontekstdə oxşar və fərqli cəhətlərin, xüsusiyyətlərin üzrə çıxarılmasıdır.

**Tədqiqatın nəzəri-təcrübi əhəmiyyəti:** Tədqiqat işində tarixi müqayisəli metodun əsas müddəalarından faydalanmaq, müasir ədəbiyyatşünaslıq elminin zəngin elmi qaynaqlarından əsaslı surətdə yararlanmaq, onlara bir ehkam kimi yox, müasir dövrün elmi-nəzəri tələblərinə uyğun tərzdə yanaşmaq nəticəsində Valter Skott, Y.V.Çəmənzəminli və M.S.Ordubadinin tarixi romanlarının dəqiq və obyektiv dəyərləndirilməsi tədqiqatın nəzəri-təcrübi əhəmiyyət kəsb etməsidir.



**Tədqiqatın aprobasiyası:** Dissertasiya işi Bakı Dövlət Universitetinin Dünya ədəbiyyatı kafedrasında yerinə yetirilmişdir. Tədqiqatın əsas müddəaları elmi seminar və konfranslarda məruzə edilmiş, həm respublikamızın, həm də bəzi xarici ölkələrin məcmuələrində, "Xəbərlər"ində dissertasiyanın əsas məzmununu əhatə edən 9 məqalə çap olunmuşdur.

**Tədqiqatın quruluşu:** Tədqiqat işi Giriş, üç fəsil, Nəticə və ədəbiyyat siyahısından ibarətdir.

## İŞİN ƏSAS MƏZMUNU

Dissertasiyanın birinci **fəsli "Qərb ədəbiyyatında tarixi roman" adlanır ki,** burada tarixi roman janrının yaranması, onun ədəbi-bədii və nəzəri-estetik prinsipləri şərh olunur. Bu baxımdan, fəslin birinci yarımfəsli **"Tarixi roman janrının yaranması və onun nəzəri-estetik prinsipləri"** adlanır.

Dünya ədəbiyyatşünaslığında tarixi roman haqqında zaman – zaman müxtəlif fikirlər söyləmişlər. Belə ki, bu cür romanlar haqqında "tarixi roman", "tarixdən söz açan roman", "tarixə söykənmiş roman", "tarix romanı" kimi terminlər işlənmişdir[1].

Tarixi roman elmlə sənətin qovuşduğu ədəbi janrlardan biridir. Bu janr bədii ədəbiyyat nümunəsi olan "roman"la "tarix" elmini özündə birləşdirir. "Oksford Ədəbiyyat Terminləri lüğəti"ndə Valter Skottun tarixi romanın banisi olması göstərilir. Burada tarixi roman bəzi yazıçıların, istənilən, hər hansı bir tarixi dövrün mövcud hadisələrini, hakim təbəqələrin düşüncəsini və qanun-qaydalarını həqiqi surətdə qələmə aldığı bir roman tərzi kimi verilir. Tarixi romanın əsas cəhətlərindən biri kimi, fərdi tale ilə ictimai qarşıdurma arasındakı əlaqənin əhəmiyyəti baxımından hadisələrin baş verdiyi dövrün başlıca xüsusiyyətlərinin təsvir edilməsi göstərilir[2].

Tarixi roman ustası öz əsərində tarixi sənədlərə, tarixçilərin keçmiş haqqında aşkar etdiyi materiallara rəngarəng don geyindiməklə, quru və cansıxıcı görünən bu məlumatları daha maraqlı və cazibədar edir, keçmişi daha dolğun, hərtərəfli, tarixi koloritə uyğun vermək üçün müəyyən hadisələr, epizodlar düşünür, hətta tarixdə mövcud olmayan

---

[1] Doğan M. Can. Tarihî Romanın Dinamikleri ve Son Onbeş Yılın Tarihî Romanları. Türk Yurdu, 2000, s. 142.

[2] Baldick Ch. The Concise Oxford Dictionary of Literary Terms. Oxford, New York, Oxford univ. press, 1990, 203 p.

insan surətləri yaradır ki, buna da bədii uydurma deyilir. Ədəbiyyat bədii uydurmasız keçinə bilmədiyi kimi, onun mühüm bir qolu olan tarixi roman da bədii uydurmasız təsəvvür edilə bilməz[1].

Yazıçı tarixi məlumatları zəngin təxəyyülü ilə bəzəyir və tarixin boş buraxdığı hissələri tamamlayır. Tarixi romanla tarix kitabı arasındakı əhəmiyyətli fərqlərdən biri də budur. Macar tədqiqatçısı Georq Lukaç bu fərqi belə izah edir: "Tarixi romanda əsas məqsəd böyük tarixi hadisələrin yenidən təsviri deyil, bu hadisələrlə fərdiləşdirilən insanların bədii şəkildə canlandırılmasıdır…"[2]

Tarixi əsərlərdə hadisələrin inkişafının xronoloji ardıcıllığının gözlənilməsi mühüm şərtlərdən biridir. Yazıçı məqsədinə nail olmaq üçün tarixi hadisələri dəyişikliklər etməklə müəyyən süjet və kompozisiya daxilində təsvir edərkən bəzi dəyişikliklər də edir. "Elə tarixi hadisələr var ki, məntiqi və dialektik qanunauyğunluqlara tabedir. Bunlar tarixin əsasıdır. Elə tarixlər də var ki, onlar təsadüfi olub, hadisələrin inkişafında əhəmiyyət kəsb etmir. Burada sənətkar istədiyi kimi hərəkət edə bilər"[3].

Birinci fəslin ikinci yarımfəsli **"Avropa ədəbiyyatında tarixi roman"** adlanır.

Avropada hələ antik dövrdən başlayaraq ayrı-ayrı əsərlərdə bu və ya digər dərəcədə tarixilik prinsiplərinə rast gəlinirdi. Məsələn, Homer özünün "İliada" və "Odisseya", Vergili isə "Eneida" əsərlərini yazarkən mənsub olduqları xalqların bir növ qəhrəmanlıq tarixlərini qələmə almağı qarşılarına məqsəd qoymuşdular. Bundan başqa, antik dövrdə tarixə, coğrafiyaya və digər elmlərə aid əsərlər şeir formasında yazılaraq həm elmi əsər kimi, həm də gözəl bədii ədəbiyyat nümunəsi kimi diqqəti cəlb edirdi. Həmçinin, Herodot, Plini kimi tarixçilər öz əsərlərində tarixən baş vermiş faktlarla yanaşı, əsatir, əfsanə, rəvayət və dastanlara da geniş yer ayırırdılar. Bu da qədim dövrdə təbii hal hesab olunurdu. Çünki, o dövrdə mövcud olan rəvayət və dastanlar özlərində ayrı – ayrı ölkələr, şəhərlər, tarixi yerlər və şəxsiyyətlər haqqında məlumatları əks etdirirdilər. Ümumiyyətlə qədim dövrlərdə bu tendensiya bütün dünyada geniş yayılmışdı. Qədim Çin tarixçisi Sıma Tsyanın "Tarixi qeydlər" əsəri də məhz başdan-başa əfsanə və rəvayətlərlə zəngin olmuşdur.

Buradan da belə nəticəyə gəlmək olar ki, antik dövrdə tarixi bir növ

[1] Donohue J. The Theory of Literary Kinds, lowa, 1943, 139 p.
[2] Lukacs Georg. Der Historische Roman, Neuwiel und Berlin, Luchterhand Verlang, 1965 – p.50
[3] Axundlu Yavuz . Seçilmiş əsərləri. II cild. Naxçıvan, Əcəmi, 2013. –s.15.



romanlaşdırırdılarsa, Valter Skottun dövründən başlayaraq romanın tarixləşdirilməsi prosesi baş verirdi. Ser Valter Skottun romanlarının yazıldığı dövr Avropada mühüm tarixi hadisələrin baş verdiyi illər idi. Napalyonun yürüşlərindən sonra köhnə qitə sanki yenidən keçmiş günlərə dönmək istəyirdi. Skott ilk romanı "Ueverli"ni də məhz bu dövrdə, yəni, Napalyonun məğlub edildiyi 1814-cü ildə yazmışdı[1].

Tarixi roman janrının banisi Valter Skott sayılsa da, Avropa ədəbiyyatında tarixi roman janrında əsərlər yazılmışdır. Eduard Corc Bulver Littonun (1803-1873) "Pompeyin son günləri"; Robert Qreyvizin (1895-1985) "Mən Klavdiyəm"; Alferd de Vinyinin (1797-1863) "Sen Mar"; Viktor Hüqonun (1802—1885) "Paris Notr-dam kilsəsi" və "Doxsan üçüncü il"; Prosper Merimenin (1803-1870) "IX Karl dövrünün xronikası"; Qustav Floberin (1821-1880) "Salambo"; Henrix Mannın (1871-1950) "Kral IV Henrixin gəncliyi", və "Kral IV Henrixin yetkinlik illəri"; A.Neymanın "İblis", Henrix Bernhard Kellermanın (1879-1951) "9 noyabr"; Georq Ebersin (1837 – 1898) "Koğuş"; Alessandro Mandzoninin "Adaxlı"; Rafaello Covaniollinin (1838-1915) "Spartak"; Henrix Senkeviçin (1846-1916) "Yolun hayanadır?"; Boleslav Prusun (1847-1912) "Firon"; Aleksandr Puşkinin "Kapitan qızı"; Qoqolun "Taras Bulba"; Lev Tolstoyun "Hərb və sülh" tarixi romanları Avropa ədəbiyyatında tarixi roman janrının ən gözəl nümunələri hesab edilir. Avropa ədəbiyyatında tarixi roman yazmaq ənənəsi bu gün də davam etdirilməkdədir.

Birinci fəslin üçüncü yarımfəsli **"Valter Skott tarixi roman janrının yaradıcısı və görkəmli nümayəndəsi kimi"** adlanır**.**

Valter Skott ingilis ədəbiyyatının görkəmli nümayəndələrindən biridir. O, dünya ədəbiyyatında tarixi roman janrının banisi sayılır. Valter Skottun yaradıcılıq illəri İngiltərə ədəbiyyatında romantizmin son – realizmin isə ilk mərhələsinə aiddir. Valter Skott 1771-ci il avqustun 15-də Edinburqda doğulmuşdur. Maraqlıdır ki, yazıçının atasının adı da Valter Skott olmuşdur. Dövrünün ədəbi qanunlarını bir ziyalı və savadlı yazıçı kimi dərindən dərk edən Ser Valter Skott özünün daxili hiss və həyəcanlarını və vətənpərvərlik duyğularını, həm də geniş elmi və tarixi biliklərini insanlara çatdırmaq, oxucularla bölüşmək üçün dünya ədəbiyyatı tarixində tamamilə yeni bir ədəbi janrı – tarixi roman janrını yaratmışdı. Rus alimi Aleksandr Dolininin fikrincə, Valter Skott tarixə romantik baxışı və tarixi romantikləşdirməsi ilə tarixə həvəs oyadır,

[1] Трельч Э. Историзм и его проблема. М., Юрист, 1994, с.267

tarixçilərdə tarixi daha maraqlı yazmaq fikrini gücləndirirdi. Bir sözlə o, ədəbi proseslərə deyil, tarixi fikrə daha çox təsir göstərmişdir[1].

V.Skott ilk dəfə 1796-cı ildə alman yazıçısı Qotfrid Avqust Bürgerin "Lenora" adlı balladasının tərcümə etməklə ədəbiyyat sahəsinə gəlmişdir. Yazıçı 1800-cü ildən sonra özünü bütünlüklə ədəbi yaradıcılığa həsr edir. 1802-ci ildə o, "Şotlandiyanın sərhəd nəğmələri" əsərini yazır. Həmin kitabdan sonra yazıçı ardıcıl olaraq "Sonuncu menestrelin mahnısı" (1805), "Marmion" (1808), "Göl qızı" (1810), "Rokbi" (1813), "Vaterlou meydanı" (1815) və s. romantik poemalarını yazır. Bunlardan "Marmion" əsərində şotlandiyalıların ingilislər əleyhinə apardıqları mübarizə, "Göl qızı" əsərində kralın feodallarla mübarizə, "Rokbi"də XVII əsrdə İngiltərədə baş verən inqilab təsvir edilir. Bu əsərlər bir növ, V.Skottun gələcəkdə geniş tarixi romanlar yazması üçün hazırlıq mərhələsi və keçid dövrü idi. Ədib bu poemalarından sonra 1814-cü ildə ilk romanı olan "Ueverli"ni yazır. Bu ilk romanının gözlənilməz uğurundan həvəslənən Skott bir-birinin ardınca 28 roman bir neçə povest və hekayə yazmışdır. Onun "Ueverli, yaxud altmış il əvvəl" (1814); "Qay Mannerinq, yaxud Münəccim" (1815); "Qara Cırtdan" (1816); "Antikvar" (1816); "Puritanlar" (1816); "Edinburq həbsxanası" (1818); "Rob Roy" (1818); "Ayvenqo" (1819); "Montrous əfsanəsi" (1819); "Lammermur gəlini" (1819); "Abbat" (1820); "Monastr" (1820); "Kenilvort" (1821); "Peveril Pik" (1822); "Pirat" (1822); "Kventin Dorvard" (1823); "Sent-Ronan suları" (1824); "Redqontlet" (1824); "Həmail" (1825); "Adaxlı" (1825); "Vudstok" (1826); İki çodar" (1826); "Dağlı dul qadın" (1827); "Pert gözəli və ya sevgililer günü" (1828); "Kobud kral" 1829; "Parisli qraf Robert" (1831); "Təhlükəli qəsr" (1831); "Maltanın mühasirəsi" (1832) adlı romanları vardır[2].

Yazıçının romanları mövzusuna görə bir neçə qrupa bölünür. Onun "Ueverli, yaxud altmış il əvvəl", (1814), "Qay Mannerinq" (1815), "Antikvar" (1816), "Puritanlar" (1816), "Rob Roy" (1817) kimi romanları vətəni Şotlandiyanın tarixindən bəhs edir. Ədibin "Ayvenqo" (1819), "Monastır" (1820), "Rahib" (1820), "Kenilvort" (1820), "Vudstok" (1826) kimi əsərlərində İngiltərənin tarixi keçmişindən bəhs edilir. Müəllifin "Kventin Dorvard" və "Həmail" və s. əsərləri isə digər

[1] Долинин А.А. История одетая в роман: Вальтер Скотт и его читатели. М., Книга, 1988, с.127
[2] Shaw H. E. The Forms of Histoical Fiction: Sir Walter Scott and his Sucessors. Ithaca & London, Cornell University Press, 1983, p.137



ölkələrin tarixinə həsr olunmuşdur[1]. Müasir dövrümüzdə Skotta olan marağın artmasının əsas səbəbi qloballaşma dövründə dünyada milli mənsubiyyət məsələsinin daha çox gündəmə gəlməsi və tarixi romanın bu işə xidmət edən bir ədəbiyyat janrı kimi yenidən mühüm əhəmiyyət kəsb etməsidir.

Dissertasiyanın ikinci fəsli **"Azərbaycan ədəbiyyatında tarixi roman janrının yaranması və əsas inkişaf mərhələləri"** adlanır. Bu fəslin birinci yarımfəsli **"Y.V.Çəmənzəminli Azərbaycanda tarixi roman janrının yaradıcısı kimi"** adlanır.

Azərbaycanda tarixi romanın banilərindən biri hesab edilən tanınmış ziyalı, istedadlı yazıçı, görkəmli hüquqşünas və ictimai xadim olan Yusif Vəzir Çəmənzəminli 1887 – ci ildə Şuşa şəhərində anadan olmuşdur. Yazıçını ən çox tanıtdıran onun tarixi romanlarıdır. Onun adı Azərbaycanda tarixi roman janrının banisi olan ustad sənətkarlardan biri kimi Məmməd Səid Ordubadi ilə yanaşı çəkilir.

Azərbaycan ədəbiyyatında sırf tarixi romanların yazılmasının əsasını XX əsrin 20-ci illərinin sonu, 30-cu illərinin əvvəllərində Yusif Vəzir Çəmənzəminli qoymuş, Məmməd Səid Ordubadi isə bu janrın ən gözəl nümunələrini yaratmışdır. Yusif Vəzir Çəmənzəminlini Məmməd Səid Ordubadidən fərqləndirən əsas cəhət ondan ibarətdir ki, onun bədii yaradıcılığında tarixi faktlara və hadisələrə, tarixi şəxsiyyətlərin həyatına və fəaliyyətlərinə münasibətdə sərbəst hərəkət yolunu seçməmiş, onları obyektiv, düzgün vermək yolu ilə getmişdir. Lakin ədibin bu cür obyektivliyi heç də tarixi fakt və hadisənin təsvirində elmi cəhətdən tam dəqiqliyə riayət etmək anlamına gəlmir[2].

Bu baxımdan onun diqqəti daha çox cəlb edən əsəri "Qızlar bulağı" romanıdır. Əsərdə mifik və fantastik elementlərə tez-tez rast gəlinsə də, bu əsər tarixi roman hesab edilir. Əsərin süjetinə qədim ailə, qəbilə və ibtidai cəmiyyət həyatı, oturaq və köçəri tayfaların məşğuliyyəti və məişət tərzi ilə bağlı real tarixi detallar əlavə edilməsi onu fantastik əsər səciyyəsi daşımaqdan azad etmişdir. Professor Tofiq Hüseynoğlunun fikrincə, yazıçı "Qızlar bulağı romanında qədim dövrlərdə köçəri skif tayfalarının Azərbaycana gələrək burada oturaq həyat tərzinə keçmələrini, məişətini, adət-ənənələrini tarixi faktlar, sənədlər əsasında verməklə gənc nəsli doğma xalqını sevmək, onun adət və qanunlarına

[1] Walker E.O. Scott's fiction & the picturesque. Salsbury, 1982, p. 125
[2] Xəlilov Q. Azərbaycan romanının inкişaf tarixindən. Baкı, Elm, 1973, s.300

hörmət etmək, düzgün və xoşbəxt yaşamağın yollarını gənclərə çatdırmaq istəmişdir[1].

Yazıçının "İki od arasında"romanı yazıldıqdan xeyli sonra, 1960-1961-ci illərdə Əkbər Ağayev tərəfindən "Qan içində" adı ilə işlənib kiçik hissələrlə "Azərbaycan jurnalı"nda çap olunmuşdur. Əkbər Ağayevin fikrincə, əsərə ədibin özü bu romana "İki od arasında" adını vermişdir. Əsərin jurnal nəşrində romandakı bir sıra səhnələr və yazıçının Azərbaycan tarixində baş verən bir çox qanlı vuruşmalara, dəhşətli müharibələrə bəslədiyi nifrət əsas götürülərək, əsərə "Qan içində" adı verilmişdir. Yalnız bundan sonra əsərin adı hamı tərəfindən "Qan içində" kimi qəbul edilmişdir. Lakin digər tədqiqatçılar öz əsərlərində bu romanın adını "Od içində", "Vaqif" kimi də göstərmişlər. Ədibin tədqiqatçılarından biri olan tənqidçi və ədəbiyyatşünas M.Axundovaya görə, yazıçı özü bu əsərinin adını çox yerdə "Vaqif" kimi göstərir. Lakin M.Axundova bu fikrə qarşı etiraz edərək yazırdı: "Doğrudur, Vaqif əsərdə əsas surətdir, lakin əsərin sərlövhəsində "Vaqif" sözü verilməmişdir. Əsərin mövzu və əhatə etdiyi tarixi ictimai problemlərin əhatə dairəsi Vaqifin şəxsi həyatı məsələsindən xeyli genişdir"[2].

Müəllif "İki od arasında" romanının I hissəsində Qarabağ xanlığının daxili həyatından və qonşu Azərbaycan xanlıqlarına münasibətindəki ziddiyyətlərdən bəhs edilir. Bu hissənin sonlarında İrana münasibət məsələsi də ortaya çıxaraq vəziyyəti bir qədər də mürəkkəbləşdirir. Əsərin II hissəsində isə yenə də daxili ziddiyyətlərin davam etməsi, qonşu xanlıqlarla yaşanan bir sıra problemlərin hələ də həll edilməmiş qalması, İran və Rusiya təhlükəsinin hələ də davam etməsi kimi məsələlər Qarabağ xanlığının süqutuna doğru aparır. Ağaməhəmməd şaha müqavimət göstərməyin mümkünsüz olduğunu görən İbrahim xan öz ailəsi ilə birlikdə indiki Zaqatala rayonunun Car kəndinə qaçır. Ağaməhəmməd şah başçılıq etdiyi İran qoşunları ilə heç bir müqavimətə rast gəlmədən xanlığın mərkəzi olan Şuşa şəhərinə daxil olaraq vaxtilə ona müqavimət göstərən əleyhdarlarını həbs etdirməyə və öldürməyə hazırlaşır. Lakin onun qəfil ölümü bu planlarını yarımçıq qoyur. Lakin şahın ölümündən sonra da Şuşada vəziyyət yaxşılaşmır. Əksinə İbrahimxəlil xanın şəhərdə olmamasından istifadə edərək xanlığı ələ keçirən Məhəmməd bəy Cavanşir İbrahimxəlil xanın yaxın dostu və baş vəziri olan Vaqifi oğlu Qasım ağa ilə birlikdə edam etdirir. Romanın

[1] Hüseynoğlu Tofiq. Ədəbiyyatla yaşayıram. Bakı, Azərnəşr, 1993, s. 201
[2] Hüseynoğlu Tofiq. Ədəbiyyatla yaşayıram. Bakı, Azərnəşr, 1993, s. 207



epiloqunda isə göstərilir ki, İbrahimxəlil xan geri qayıdaraq İranın yeni şahı Fətəli şahla münasibətləri qaydasına salmaq istəyir. Sonda o, 1805-ci il 14 mayda Kürəkçay ətrafında bağlanmış müqaviləyə əsasən Rusiyanın himayəsinə keçir və rus mayoru Lisanyeviç onu güllələyir. Bununla da xanlığın labüd süqutu baş verir.

İkinci fəslin ikinci yarımfəsli **"M.S.Ordubadi tarixi roman janrının görkəmli nümayəndəsi kimi"** adlanır.

Məmməd Səid Ordubadi 1872-ci il may ayının 5-də Naxçıvanın Ordubad mahalında şair ailəsində dünyaya göz açmışdır. O, Azərbaycan ədəbiyyatında tarixi roman janrının banilərindən və ən gözəl nümunələrini yaradan bacarıqlı, ustad yazıçılarından biri sayılır. Yazıçının tarixi romanlarından "Qılınc və Qələm", "Dumanlı Təbriz", "Gizli Bakı", "Döyüşən şəhər", "Dünya dəyişir", "Gənc çekistlər" və s. əsərlərinin adlarını çəkmək olar.

"Qılınc və Qələm" romanı yazıçının son tarixi romanı olub XII əsr Azərbaycan həyatını canlandırır. Əsər Atabəylər sülaləsinin hakimiyyətinin təxminən əlli illik bir dövrünü təsvir edir. Professor Əli Sultanlı "Qılınc və qələm" haqqındakı qeydlərində yazırdı: "Romanda XII əsr Azərbaycanın siyasi-iqtisadi vəziyyəti, Nizami Gəncəvinin və onun müasirlərinin həyatı, o zamanki ictimai-siyasi vəziyyət təsvir edilmişdir. Lakin ədib öz təsvirində tarixi həqiqətə az riayət etmişdir"[1]. Onun bu fikri ilə razılaşan digər tədqiqatçı F.Vəzirovanın fikrincə də əsərdə yazıçı təxəyyülü üstünlük təşkil edir[2].

Əsərdə Nizami Gəncəvinin daha çox ictimai-siyasi fəaliyyəti, apardığı mübarizələri daha geniş təsvir edilir. Roman adından da göründüyü kimi, qılıncla qələmin, yəni, ağılla gücün ittifaqından söhbət açır. Nizami Gəncəvi romanın əvvəlində rəğbət bəslədiyi, həmfikri olan xalq qəhrəmanı Fəxrəddinə deyir: "İndi ki, qılınc və mizraq işlətməyə, ox və kaman işləri ilə məşğul olmağa həvəsin vardır, onları yaxşı öyrən. Mən də qələm işlərində yüksək mərtəbə əldə etməyə çalışacağam. Biliksiz və düşüncəsiz adamların silahları da qələbə qazana bilməz. Qəhrəmanlıq yalnız silah deyil, bilik də tələb edir. Bunların ikisi də bizə lazımdır"[3].

M.S.Ordubadinin "Dumanlı Təbriz" romanı da tarixi roman janrının ən gözəl bədii nümunələrindən biri sayıla bilər. Əsərdə təsvir edilən

[1] Azərbaycan ədəbiyyatı tarixi, 3 clddə. III cild. Bakı, Elm nəşriyyatı, 1957, s. 402
[2] Vəzirova F. Məmməd Səid Ordubadi, Bakı, Gənclik, 1970, s.109
[3] Ordubadi M.S. "Qılınc və Qələm": Birinci hissə. Roman. Bakı: Şərq-Qərb.2005, s. 10-14

tarixi hadisələr böyük bir hissəsi tarixi faktlardan götürülüb rəsmi sənədlərlə təsdiq edilə bilən hadisələrdir. Bunlardan İrana müdaxilə haqqında İngiltərə - Rusiya sövdələşməsi, Təbriz əncüməninin İran hökumətinə tabe olmaması, Məhəmmədəli şahın yenidən taxta gətirilməsi kimi mühüm tarixi hadisələr rəsmi diplomatik sənədlər əsasında təsvir edilir. Əsərdə həmçinin o dövrün mətbuatından da istifadə edilir ki, bu da yazıçıya hadisələri daha real təsvir etməyə imkan verir[1]. Yavuz Axundlunun fikrincə dövrün elə bir ciddi ictimai-siyasi hadisəsi yoxdur ki, müəllifin diqqətindən yayınmış olsun. Lakin başlıca məsələ xalq həyatını, azadlıq hərəkatını təsvir etməkdir. İctimai problemləri ön plana çəkən ədib xalqın adət ənənəsi, mədəniyyəti, həyat tərzi haqqında da oxucuda bitkin təəssürat yaratsa da, bütün bunlar ayrı-ayrı surətlərin taleyini, lirik-intim macəralarını da kölgədə qoymamışdır. Ona görə də bu romana maraq illər keçdikdən sonra da azalmır[2]. Azərbaycan ədəbiyyatı tarixində tarixi roman yazmaq ənənəsi təkcə Yusif Vəzir Çəmənzəminli və Məmməd Səid Ordubadi yaradıcılığı ilə məhdudlaşmır. Ədəbiyyatımızda tarixi roman yazmaq ənənəsi bu gün də uğurla davam etməkdədir.

Dissertasiyanın üçüncü fəsli **"Avropa və Azərbaycan tarixi romanlarının müqayisəli tədqiqi"** adlanır. Üçüncü fəslin birinci yarımfəsli "**Avropa tarixi romanlarının Azərbaycan tarixi romanlarına təsiri"** adlanır.

Romanın Avropadakı inkişafı ilə Azərbaycandakı inkişafı bir-birindən olduqca fərqlidir. Avropada fransız inqilabı ilə güclənən və millətçilik ideallarına söykənən tarixi roman, sovet ideoloqları və ədəbi tənqidçiləri tərəfindən milliyyətçilik xüsusiyyətlərindən uzaqlaşdırılmış və bu roman növünə inqilabçı bir don geyindirilməyə çalışılmışdır. Azərbaycan ədəbiyyatının tarixi romanlarını araşdırarkən də, bu cəhətlərə xüsusilə diqqət yetirmək lazımdır. Avropa tarixi romanları ilə Azərbaycan tarixi romanları arasında bir sıra özünəməxsus fərqlər də vardır ki, onlar aşağıdakılardır:

Bildiyimiz kimi Avropa xalqları dini mənsubiyyət baxımından xristiyandırlar. Azərbaycan xalqı isə müsəlman Şərqinin nümayəndəsidir. Ona görə də dini dünyagörüşlərindəki fərqlər onların tarixi romanlarında da əks olunur.

[1]Axundlu Yavuz . Məmməd Səid Ordubadi. Bakı, Elm və təhsil, 2012, s. 215

[2] Axundlu Yavuz . Məmməd Səid Ordubadi. Bakı, Elm və təhsil, 2012, s.250



Azərbaycan tarixi demək olar ki, başdan-başa parlaq tarixi şəxsiyyətlər, böyük fatehlərin tarixidir. Bu da Azərbaycan tarixi romanlarına mövzu baxımdan zəngin bədii material verir. Məsələn, Azərbaycan tarixi Cavanşir, Babək, Uzun Həsən, Əmir Teymur, Şah İsmayıl Xətai, Şah Təhmasib, Şah Abbas, Nadir şah Əfşar, Səttarxan, Bağırxan kimi tarixi şəxsiyyətlərlə zəngindir ki, onlar da bilavasitə tarixi romanlarımızın qəhramanlarına çevrilmişdir.

Avropa ədəbiyyatında mövzu baxımdan Napaleon dövründən sonrakı tarixi hadisələrdən bəhs edən romanlar daha çoxdur. Çünki, tarixi roman janrının yaranmasına bilavasitə təsir edən amillərdən biri, bəlkə də birincisi Napaleonun Avropa ərazisində həyata keçirdiyi geniş işğalçılıq fəaliyyətidir. Napaleonun hücumları ayrı-ayrı Avropa xalqlarını milli özünüdərkə, güclü düşmənə qarşı birləşərək vahid şəkildə mübarizə aparmaq ideyasının zəruriliyini bir daha ortaya qoydu ki, bu da birbaşa ədəbiyyatda əks olunmağa başladı. Bu baxımdan görkəmli macar tədqiqatçısı Georq Lukas da tarixi roman janrını araşdırarkən tarixi romanın meydana gəlmə səbəblərini belə izah edir: "Amma bizim üçün ən vacib olanı, Fransız inqilabından əvvəlki və sonrakı tarixi şüurun əsas xüsusiyyətlərini tarixi romanın hansı ictimai və ideoloji zəmində meydana gəldiyini aydın şəkildə göstərmək baxımından obyektiv olaraq ortaya qoymaqdır"[1].

Üçüncü fəslin ikinci yarımfəsli **"Valter Skott və Azərbaycan tarixi romanı"** adlanır.

Valter Skott çox gənc yaşlarından tarixə maraq göstərmişdir. Yazıçının qədim cəngavər yürüşlərinə və döyüşlərinə olan bu uşaqlıq həvəsi sonradan Şotlandiya, İngiltərə və başqa Avropa ölkələrinin tarixini müntəzəm, dərin, həqiqi, elmi şəkildə öyrənməyə çevrilir. Onun "Şotlandiya tarixi" (1829) və "Napaleon Bonapartın həyatı" (1827) adlı tarixə dair əsərləri də vardır. Deyilənlərdən belə nəticəyə gəlmək olar ki, Valter Skott tarixi romanlar yazmamışdan əvvəl əsaslı surətdə hazırlaşmış, sonra isə tarixi romanlarını yazmışdır.

Eyni sözləri Azərbaycan tarixi romanının baniləri Yusif Vəzir Çəmənzəminli və Məmməd Səid Ordubadinin haqqında da demək mümkündür. Belə ki, Y.V.Çəmənzəminli "Qızlar bulağı" romanını yazarkən Azərbaycan, türk, fars, rus, fransız və ingilis dillərində olan 19, "İki od arasında" romanını yazarkən isə 30 cilddən çox 25 əsərdən istfadə etmişdir. Bu mənbələr fərqli illərdə yazılmış əsərlərdən ibarət idi.

[1] Lukacs Georg. Der Historische Roman, Neuwiel und Berlin, Luchterhand Verlang, 1965, p. 27

Bundan başqa Y.V.Çəmənzəminlinin "Azərbaycan ədəbiyyatına bir nəzər", "Tarixi, coğrafi və iqtisadi Azərbaycan", "Biz kimik və istədiyimiz nədir", "Milli və mədəni işlərimiz", "Tariximiz haqqında Azərbaycan müəlliflərinin əsərləri" və s. elmi məqalələrin müəllifidir ki, bu da onun tarixi roman yaradıcılığı sahəsinə çox hazırlıqlı gəldiyini bir daha sübut edir[1].

Valter Skott kimi Məmməd Səid Ordubadi də tarixi romanlarını yazmamışdan əvvəl qələmə alacağı dövrü hərtərəfli şəkildə öyrənərək müxtəlif mənbələrdən geniş istifadə etmiş, zəngin materiallar toplamışdır. O, "Dumanlı Təbriz" əsərini yazarkən İranın və Təbrizin tarixinə dair geniş elmi araşdırmalar aparmış, çox sayda elmi və publisistik məqalələr çap etdirmişdir.[2]

Tarixi roman janrının əsasını qoyan Valter Skott ümumiyyətlə inqilabı o qədər də sevməmiş, sadə xalqla hakim cəmiyyət arasında barışdırıcı mövqe tutmuşdur. R. Gillesin fikrincə, "yazıçının özü də zadəgan sinfinə mənsub idi və bir zadəgan kimi, bu sinfin nüfuzdan düşməsilə barışa bilməzdi. Onun fikrincə, ölkəni parçalayan və xalqı itaətdə və əsarətdə saxlayan qüvvələri inqilab yolu ilə deyil, ədalətli hökmdarın ətrafında sıx birləşməklə aradan qaldırmaq olar"[3]. Xalqın iştirakı olmadan heç bir tarixi irəliləyişə nail olmağın mümkün olmadığını yaxşı dərk edən V.Skott xalq hərəkatını feodalların onları əsrlər boyu sıxışdırmasına cavab kimi mənalandırır.

Məmməd Səid Ordubadi özünün "Qılınc və qələm" romanında xalq qəhrəmanı Fəxrəddin surətini yüksək bədii sənətkarlıqla işləmişdir. Əsərdə azərbaycanlıların Fəxrəddinin başçılığı ilə başlamış xalq üsyanı nəticəsində Əmir İnancın malikanəsini alınması epizodu Valter Skottun "Ayvenqo" romanındakı ingilislərin Robin Qudun başçılığı ilə Fron de Bef malikanəsini alması epizoduna yaxındır.

Hökmdar surətlərinə də böyük önəm verən Valter Skottun romanlarında bu hökmdarların təsviri özünəməxsus yer tutur. Bu baxımdan "Ayvenqo" romanında yaradılan kral Riçard surəti əsərdə mühüm yer tutur. V.Skott Riçardın simasında ölkədə qayda-qanun yarada biləcək ədalətli hökmdar haqqındakı təsəvvürünü vermişdir. "Kventin Dorvard" romanındakı Fransa kralı XI Lüdovik obrazı da yazıçının yaratdığı mükəmməl surətlərdən biridir. Bu surət həm də özünün çoxcəhətliliyi ilə fərqlənir. Kral bütün feodal mülklərinə öz

[1] Çəmənzəminli Y.V. Əsərləri. Üç cildə. III cild. Bakı, Avrasiya Press, 2005, s. 113-361
[2] Axundlu Yavuz . Məmməd Səid Ordubadi. Bakı, Elm və təhsil, 2012, s. 214
[3] Gillies R. Recollections of Sir Walter Scott, Bart. L., 1837, p.63



torpaqları kimi baxaraq onları təkbaşına idarə etmək istəyir. Valter Skott öz romanında da xalqın bir hökmdar ətrafında birləşməklə nicat tapacağı fikrini irəli sürür. Lakin heç də həmişə yazıçının bütün romanlarındakı monarxiya quruluşunun təsvirində kral hakimiyyətinə birmənalı fikri də görə bilmirik. Belə ki, "Vudstok" romanında verilən mənasız və yüngül təbiətli, dövlət işlərindən bixəbər, qabiliyyətsiz bir adam olan, lakin taxt-taca sahib olmaq xəyalına düşən şahzadə Karl Stüart surəti buna misal ola bilər. Yazıçının "Həmail" əsərində rast gəldiyimiz şirürəkli kral Riçard surəti də xaraktercə zəif və xəstəhal, düşdüyü çətinliklərdən çıxmağı bacarmayan bir insan kimi təsvir edilmişdir.

Azərbaycan tarixi romanlarında da hökmdar məsələsinə geniş yer verilmişdir. Belə ki, Yusif Vəzir Çəmənzəminlinin "Qızlar bulağı" romanında Xaqan, "İki od arasında" romanında İran şahı Ağa Məhəmməd şah Qacar, Qarabağ xanı İbrahimxəlil xan və digər Azərbaycan xanları, gürcü çarı İrakli və Dağıstan hakimlərindən biri Ömər xan obrazları buna misal ola bilər. İbrahim xan surətinə dəqiq nəzər salsaq onun cəsur, döyüşkən, amansız və ötkəm olması kimi xüsusiyyətlərinə görə Valter Skottun "Kventin Dorvard" əsərindəki Burqundiya hersoqu Cəsur Karla, ölkəni ağıllı şəxslərin məsləhətinə qulaq asaraq ağılla idarə etməsinə görə isə Fransız kralı Lüdovikə bənzətmək olar.

Valter Skott kimi Yusif Vəzir Çəmənzəminli də, adil hökmdar surəti ilə yanaşı, zalım hökmdar obrazını da çox ustalıqla yaratmışdır. Onun "Qızlar bulağı" əsərində Xaqan, "İki od arasında" romanında isə Şirvan xanı, İran şahı Ağa Məhəmməd xan obrazları buna misal ola bilər. Hökmdar məsələsi Məmməd Səid Ordubadinin yaradıcılığında geniş yer tutur. O "Qılınc və qələm" romanında yaradılan Məhəmməd Cahan Pəhləvan və Qızıl Arslan kimi hökmdar obrazları Valter Skottun romanlarında rast gəlinən ədalətli hökmdar və Yusif Vəzir Çəmənzəminlinin "İki od arasında" romanındakı İbrahim xan obrazına çox bənzəyir, "Dumanlı Təbriz" romanındakı İran şahı Məhəmmədəli şah və "Gizli Bakı" romanındakı Rusiya imperatoru II Nikolayın obrazları isə Valter Skottun yaratdığı zalım hökmdar və Yusif Vəzir Çəmənzəminlinin qələmə aldığı Ağa Məhəmməd şah Qacar obrazı ilə üst-üstə düşür.

Valter Skottun romanlarında rast gəlinən ox atma və cəngavər yarışları, qələbə şənlikləri və başqa səhnələr, hər bir obrazın mənsub olduğu ictimai zümrənin xarakter xüsusiyyətlərinin onların danışıq tərzində əks olunması kimi cəhətlərə Yusif Vəzir Çəmənzəminlinin və

M.S.Ordubadinin yaradıcılıqlarında da rast gəlirik. Bu baxımdan ingilis tədqiqatçısı Aleksandr Uelş yazıçının romanlarını reallıqla qarışdırılmış romanlar olduğu fikrini irəli sürür[1].

Valter Skott bütün romanlarında tarixi dəyişdirən konkret tarixi şəxsiyyətlər – siyasi xadimlər, hökmdarlar, sərkərdələrdən baş qəhrəman kimi deyil, əsərin tarixiliyini və inandırıcılığını artıran bir vasitə kimi istifadə etmişdir Çox vaxt da onun qəhrəmanları ya sadə xalqın nümayəndəsi, yaxud da, yoxsullaşmış zadəgan təbəqəsinə məxsus insanlardır. Məsələn: "Ayvenqo" romanında ingilis kralı Riçardın və xalq qəhrəmanı Robin Qudun,"Kventin Dorvard romanında Fransa kralı Lüdovik, Burqundiya hersoqu İgid Karlın, "Həmail" romanında isə kral Şirürəkli Riçardın və Sultan Səlahəddinlə bağlı tarixi hadisələrin bir sıra iştirakçıları olan həmin tarixi şəxsiyyətlərin real bədii obrazları yaradılsa da bu obrazlardan heç biri romanın baş qəhrəmanı olmamışlar. Bunun əsas səbəblərindən biri də o idi ki, Valter Skott tarixə məqsəd kimi deyil, vasitə kimi yanaşırdı.[2]

Eyni tendensiyaya Yusif Vəzir Çəmənzəminli və M.S. Ordubadi yaradıcılığında da rast gəlmək olur. Belə ki, Y.V. Çəmənzəminlinin "İki od arasında" romanında Azərbaycan tarixində xanlıqlar dövrünün əsas simalarından olan İbrahimxəlil xan, Bakı, Şirvan, Naxçıvan və digər Azərbaycan xanları, gürcü çarı İrakli, İran şahı Ağa Məhəmməd şah Qacar kimi tarixin gedişatını birbaşa müəyyən edən və dəyişdirən hökmdarlar və tarixi şəxslər deyil, baş qəhrəman kimi şair Vaqif çıxış edir. Məmməd Səid Ordubadinin "Qılınc və qələm" romanında da oxşar vəziyyətlə rastlaşırıq. Belə ki, romanda XII əsrin görkəmli siyasi xadimləri olan Atabəy Məhəmməd Cahan Pəhləvan, Qızıl Arslan, Əbubəkr, Özbək kimi şəxslər deyil, Nizami Gəncəvi baş qəhrəman rolunda çıxış edir. Əsərdə Nizami Gəncəvinin ölümündən sonra ölkənin tədricən məhv olmağa doğru getdiyi məlum olur.

Dissertasiya işinin **Nəticə** hissəsində alınan elmi nəticələr toplanmışdır:

Avropada və Azərbaycanda tarixi roman janrının banisi və ustadları hesab olunan Valter Skott, Y.V.Çəmənzəminli, M.S.Ordubadi yazdıqları tarixi romanlarında öz ölkələrinin həm uzaq keçmişini, həm də müasirləri olduqları dövrün ictimai-siyasi mənzərəsini qələmə almışlar. Böyük inqilabların ictimai və sinfi mübarizələrin şahidi olmuş

[1] Welsh Alexandr. The Hero of the Waverley Novels, Princeton, Princeton University Press, 1992, p. 10
[2] Walker E.O. Scott's fiction & the picturesque. Salsbury, 1982, p.123



Valter Skott, Y.V.Çəmənzəminli və M.S.Ordubadi müxtəlif tarixi hadisələr və şəxsiyyətlərin fonunda bu ədalətsizliklərə və haqsızlıqlara qarşı çıxmışlar. Onların yaradıcılığında tarixi hadisələr olduğu kimi olmasa da, həqiqətə daha yaxın bir formada əks olunmuşdur. Tarixə böyük bir vətənpərvər kimi yanaşan bu yazıçıların hər biri tarixlə bədiiliyi çox böyük sənətkarlıqla uzlaşdırmağa nail olmuşlar.

Xalqın istək və arzularını dolğun, hərtərəfli, eyni zamanda, milli bədii vasitələrlə əks etdirmək, xalq həyatının geniş təsviri, onun mənafeyinin müdafiəsi, xalq ruhununun yüksək bədii sənətkarlıqla ifadəsi Valter Skott, Y.V.Çəmənzəminli və M.S.Ordubadi yaradıcılığının əsas məqsədlərindən biridir. Onlar keçmişə müasir dövrün tələbi ilə yanaşmış, keçmiş dövrə müraciət etməklə, müasir dövrün ziddiyyətlərini daha yaxşı anlamaqda oxuculara yol göstərmişlər.

Qloballaşma prosesinin gücləndiyi, xalqların assimliasiya olunduğu hal-hazırki dövrdə tarixi roman janrı milli mənsubiyyəti qoruyub saxlamaq sahəsində əvəzedilməz əhəmiyyətə malikdir. Azərbaycanda bu cür tarixi romanların yazılması ölkə ədəbiyyatşünaslarının və yazıçılarının qarşısında duran ən vacib məsələlərdən biridir. Çünki tarixi romanlar vasitəsilə xalqımızın qəhrəmanlıq keçmişini hər zaman gənclərin diqqətinə çatdırmaq və onlarda mübarizə əzmi, milli qeyrət, vətənini və xalqını dərindən sevmək, onu bütün dünyada uca tutmaq kimi milli vətənpərvərlik hisslərini aşılamaq olar.

Məhz bu baxımdan Ümummilli Liderimiz dahi Heydər Əliyev fenomeni, onun öz xalqının və vətəninin yolunda yorulmadan çalışması, dağılmaq və dünyanın siyasi xəritəsindən silinmək təhlükəsi ilə üz-üzə qalan Azərbaycan dövlətini və xalqını sarsılmaz iradəsi, dərin ağlı və yenilməz siyasi bacarığı sayəsində xilas edərək dünya dövlətləri içərisində layiqli yerə çıxarması kitablara sığmayan neçə-neçə tarixi romanların mövzusudur. Ümummilli Liderimiz haqqında yazılması vacib olan tarixi romanlar xalqımızın bir millət kimi özünü dərk etməsinə, işıqlı gələcəyə daha dərindən inanmasına və gənclərimizin Azərbaycanın rifahı və xoşbəxt gələcəyi uğrunda böyük inam və əzmlə çalışmasına öz tövhəsini vermiş olacaqdır.

**Dissertasiyanın əsas müddəaları müəllifin aşağıdakı elmi məqalə və tezislərində öz əksini tapmışdır**:

1. Valter Skott yaradıcılığının ədəbi-bədii səciyyəsi // BDU, Dil və ədəbiyyat. Beynəlxalq elmi nəzəri jurnal. Bakı: "Bakı Universiteti

nəşriyyatı”, 2013, № 1(85), s. 168-170

2. Valter Skottun “Həmail” əsərində şərqli obrazı // Filologiya məsələləri. Bakı: “Elm və Təhsil”, 2013, № 10, s. 397-403

3. Valter Skottun “Kventin Dorvard” romanı və tarixilik // Bakı Universiteti xəbərləri. Bakı: “BDU nəşriyyatı”, 2013, № 3, s. 45-49

4. Tarixi roman janrının ədəbi-bədii və elmi-nəzəri əhəmiyyəti // Azərbaycan xalqının Ümummilli lideri Heydər Əliyevin anadan olmasının 90 illik yubileyinə həsr olunmuş filologiyanın aktual problemləri mövzusunda Respublika elmi-nəzəri konfransın materialları Bakı, 8 may 2013, s106 -109

5. Valter Skottun tarihi romanlarının fikri yönleri // T.C. Kazan Belediyyesi ve Halk kültürü araşdırmaları kurumu 2 Uluslararası Ankara—Kazan ve Çevresi halk kültürü sempozyumu ve uluslararası sanat çalıştayı, Kazan 02-04 Ekim 2013, s. 366-371.

6. Valter Skott tarixi roman janrının banisi kimi // Azərbaycan xalqının Ümummilli lideri Heydər Əliyevin anadan olmasının 91-ci ildönümünə həsr olunmuş Gənc tədqiqatçıların II beynəlxalq elmi konfransı, Bakı, 18-19 aprel 2014, s.349-350

7. Y.V.Çəmənzəminli Azərbaycanda tarixi roman janrının yaradıcısı kimi // BDU, Dil və ədəbiyyat. Beynəlxalq elmi nəzəri jurnal. Bakı: “Bakı Universiteti nəşriyyatı”, 2014, № 3(91), s. 151 - 154

8. Человеческий фактор в Азербайджанском и Европейском историческом романе // Вектор Науки Тольяттинского государственного университета, № 2 (17) 2014, s. 9-11

9. Исторический роман в европейской литературе // Научные исследования в сфере гуманитарных наук: открытия XXI века. Материалы I Международной научно-практической конференции 24-25 октября 2014 года, «Пятигорский государственный лингвистический университет», 2014, s. 20-24

10.Valter Skottun “Ayvenqo” romanında obrazlar sistemi // Azərbaycan xalqının Ümummilli lideri Heydər Əliyevin anadan olmasının 92-ci ildönümünə həsr olunmuş Gənc tədqiqatçıların III beynəlxalq elmi konfransı Bakı: 17-18 aprel 2015-ci il, s. 829-830

11.Avropa və Azərbaycan tarixi romanlarının oxşar və fərqli xüsusiyyətləri // Azərbaycan xalqının Ümummilli lideri Heydər Əliyevin anadan olmasının 92-ci ildönümünə həsr olunmuş filologiyanın aktual problemləri mövzusunda Respublika elmi-nəzəri konfransın materialları Bakı, 7-8 may 2015-ci il, səh.101 -104



**Алиев Акшин Рафик оглу**

## ВАЛЬТЕР СКОТТ И АЗЕРБАЙДЖАНСКИЙ ИСТОРИЧЕСКИЙ РОМАН ПЕРВОЙ ПОЛОВИНЫ XX века

### Резюме

Диссертационная работа на тему «Вальтер Скотт и азербайджанский исторический роман первой половины XX века» состоит из введения, трех глав, заключения и списка использованной литературы. Основная цель диссертации в исследовании жанра исторического романа на основе «Вальтер Скотт и азербайджанский исторический роман первой половины XX века".

Во «Введении» обосновывается актуальность темы, предмет и объект, цели и задачи, методологическая основа, научная новизна, теоретическая и практическая значимость, апробации и публикации исследования.

Первая глава называется «Исторический роман в западной литературе». Здесь исследуются история становления и теоретико-эстетические принципы жанра исторического романа в европейской литературе, исторические романы Вальтера Скотта, который является автором и выдающимся представителем этого жанра, а также другие вопросы.

Во второй главе исследуются история становления и основные этапы развития жанра исторического романа в азербайджанской литературе. Здесь подробно исследованы научно-теоретические и литературно-художественные особенности исторических романов М.С.Ордубади и Ю.В.Чеменземинли.

Третья глава называется «Сравнительное исследование европейских и азербайджанских исторических романов». Здесь на основе исторических романов Вальтера Скотта, М.С.Ордубади и Ю.В.Чеменземинли исследовано влияние европейских исторических романов на азербайджанский исторический роман.

В заключении диссертации обобщены результаты исследования, а также ценные научные выводы европейских и азербайджанских ученых о жанре исторического романа.

**Aliev Agshin Rafig oglu**

**Walter Scott and the historical novel in the first half of the twentieth century**


## Summary

This scientific thesis consists of the introduction, three chapters, conclusions and the list of applied literature. The main goal of the thesis is to investigate the historical novel genre on the basis of "Walter Scott and the historical novel in the first half of the twentieth century".

In the "Introduction" are investigated the actuality of the subject, the development of the subject, the object of the research, goals and objectives of the research, the methodology basis of the research, the scientific innovation of the research, the theoretical and experimental importance of the research, approbation and publication of the research and the structure of the research.

The first chapter is called that "The historical novel in the Western literature". Here are investigated the establishment and theoretical - aesthetic principles of the historical novel genre in the European literature, Walter Scott's historical novels who is the creator and the outstanding representative of the historical novel genre and so on. issues.

In the second chapter are investigated the establishment and the main development stages of the historical novel genre in the Azerbaijan literature. Here are properly investigated scientific – theoretical and literary – art features of Y.V.Chamanzaminli's and M.S.Ordubadi's historical novels.

The third chapter is called "The comparative research of European and Azerbaijanian historical novels". Here are investigated the influence of European historical novels to the Azerbaijanian historical novels on the basis of Walter Scott's Y.V.Chamanzaminli's and M.S.Ordubadi's historical novels.

At the conclusion of the thesis are summarized the european and azerbaijanian scientists' valuable scientific opinions and scientific conclusions about the historical novel genre during the investigation.





Çapa imzalanıb:
Format: 60x84 1/16. Tiraj: 100. Sifariş №

«Mütərcim» Nəşriyyat-Poliqrafiya Mərкəzi
Bakı, Rəsul Rza küç., 125
tel./faks 596 21 44
*e-mail: mutarjim@mail.ru*

**МИНИСТЕРСТВО ОБРАЗОВАНИЯ АЗЕРБАЙДЖАНСКОЙ РЕСПУБЛИКИ**
**БАКИНСКИЙ ГОСУДАРСТВЕННЫЙ УНИВЕРСИТЕТ**

**На правах рукописи**

**АКШИН РАФИК оглу АЛИЕВ**

# ВАЛЬТЕР СКОТТ И АЗЕРБАЙДЖАНСКИЙ ИСТОРИЧЕСКИЙ РОМАН ПЕРВОЙ ПОЛОВИНЫ ХХ ВЕКА

**5716.01 – Азербайджанская литература**
**5718.01 – Мировая литература (английская литература)**

**АВТОРЕФЕРАТ**

**диссертации на соискание ученой степени**
**доктора философии по филологии**

**Баку – 2017**